Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.

Heydər ƏLİYEV



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır   21 oktyabr 2015-ci il   № 80 (1996)   Qiyməti 25 qəpik

## Rəsmi xronika

*✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Kosta-Rika Respublikasının xarici işlər və etiqad naziri Manuel Qonzales Sanzı qəbul edib.*

*Azərbaycan Respublikası ilə Kosta-Rika Respublikası arasında çox yaxşı siyasi əlaqələrin mövcud olduğunu deyən Prezident İlham Əliyev nazir Manuel Qonzales Sanzın ölkəmizə səfərini əməkdaşlığımızın yaxşı göstəricisi kimi dəyərləndirdi. İki ölkə arasında əlaqələrin inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu qeyd edən dövlətimizin başçısı Azərbaycanın ikitərəfli münasibətləri genişləndirməkdə maraqlı olduğunu vurğuladı, əlaqələrimizin gələcəkdə müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadiyyat, enerji, sərmayə qoyuluşu, ticarət, mədəniyyət və digər sahələrdə genişləndirilməsinin vacibliyini qeyd etdi.*

*Kosta-Rika Respublikasının xarici işlər və etiqad naziri Manuel Qonzales Sanz indiyədək Azərbaycana Kosta-Rikadan ən yüksək səviyyəli dövlət nümayəndəsi kimi səfər etməsindən məmnunluğunu bildirdi. O, Bakıda gördüyü sürətli inkişaf proseslərinin, paytaxtımızda həyata keçirilən abadlıq və quruculuq işlərinin onda böyük təəssürat yaratdığını dedi. Nazir öz növbəsində ölkəsinin Azərbaycan ilə əməkdaşlığın müxtəlif sahələrdə inkişaf etdirilməsində maraqlı olduğunu bildirdi.*

* * *

*✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Gürcüstanın Baş nazirinin müavini, xarici işlər naziri Giorgi Kvirikaşvilini qəbul edib.*

*Gürcüstanın Baş nazirinin müavini, xarici işlər naziri Giorgi Kvirikaşvili ilk rəsmi səfərini məhz Azərbaycana etməsindən məmnunluğunu bildirdi. İkitərəfli münasibətlərimizin yüksək səviyyədə olduğunu deyən Giorgi Kvirikaşvili əməkdaşlığımızın müxtəlif sahələrdə inkişaf etdirilməsinin əhəmiyyətini vurğuladı.*

*Dövlətimizin başçısı Gürcüstanın xarici işlər naziri vəzifəsində Giorgi Kvirikaşvilinin ilk xarici səfərini Azərbaycana etməsini ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin yaxşı göstəricisi kimi dəyərləndirdi. Azərbaycan-Gürcüstan əməkdaşlığının siyasi, iqtisadi, humanitar və digər istiqamətlərdə fəal şəkildə davam etdirilməsinin zəruriliyini vurğulayan Prezident İlham Əliyev bu əməkdaşlığın bizi birləşdirən irimiqyaslı nəqliyyat, energetika və iqtisadi layihələrin həyata keçirilməsi baxımından əhəmiyyətini qeyd etdi.*

*Görüşdə birgə regional layihələrin, o cümlədən "Cənub" qaz dəhlizi və Bakı-Tbilisi-Qars dəmir yolu layihələrinin beynəlxalq əhəmiyyətindən danışıldı, bu layihələrin icrası ilə bağlı koordinasiya məsələləri ətrafında fikir mübadiləsi aparıldı.*

**AZƏRTAC-ın materialları əsasında**

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Azərbaycan beynəlxalq terrorizmlə mübarizə üçün bundan sonra da səylərini əsirgəməyəcək

***Azərbaycanın iqtisadi inkişafı və dövləti maraqları ölkə başçısı İlham Əliyevin daim diqqət mərkəzindədir. Vətənimizin təhlükəsizliyi və müdafiə qüdrətinin artırılması, Ermənistan Respublikasının işğalçılıq siyasəti, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli məsələləri Ali Baş Komandanın, demək olar ki, bütün rəsmi çıxışlarında əsas yer tutur.***



Məlum olduğu kimi, bu yaxınlarda Qazaxıstan Respublikasında Müstəqil Dövlətlər Birliyi Dövlət Başçıları Şurasının növbəti iclası keçirilib.

Azərbaycan Prezidenti İlham Əliyev həmin iclasda çıxış edərək ölkəmiz üçün əhəmiyyət daşıyan qarşılıqlı iqtisadi fəaliyyətin yeni formalarının axtarılması zərurətinə toxunub. Eyni zamanda dövlətimizin başçısı regionda təhlükəsizlik tədbirlərinin möhkəmlənməsi və beynəlxalq terrorizmə qarşı mübarizə ilə bağlı öz təkliflərini səsləndirib. Prezident İlham Əliyev bununla bağlı deyib:

- Terrorizmə qarşı mübarizədə bütün dünya birliyinin çoxplanlı əməkdaşlığı olmadan dünyada heç bir ölkə özünü tam təhlükəsiz hiss edə bilməz. MDB ölkələri, hər halda bu ölkələrin əksəriyyəti beynəlxalq terrorizmin nə demək olduğunu öz üzərlərində hiss ediblər. Bu təhlükə bu gün region ölkələri üçün bilavasitə risklərin və bizim hamımız üçün potensial risklərin mənbəyidir.

Doğrudan da, MDB dövlətləri arasında beynəlxalq terrorizmdən ən çox əziyyət çəkən ölkələrdən biri və birincisi Azərbaycandır. Azərbaycanın Dağlıq Qarabağ bölgəsində erməni separatizminin qızışdırıldığı və Ermənistanın işğalçılıq müharibəsinin genişləndiyi dövrdə beynəlxalq erməni terror şəbəkəsinin üzvləri sadə insanları öldürür, körpüləri, avtobusları, qatarları partlatmaqla yüzlərlə günahsız insanın ölümünə səbəb olur, hətta Bakı metrosunda amansız terror aksiyaları həyata keçirirdilər.

Bu gün də erməni terror təşkilatları öz bəd əməllərindən əl çəkməyiblər. 1975-ci ildə Livanda yaradılmış, erməni faşizminin banisi hesab edilən Qaregin Njdehin qeyri-insani ideyalarını möhkəm mənimsəmiş, türk diplomatlara qarşı dünyanın müxtəlif ölkələrində terror törətmiş bədnam ASALA bu gün də fəaliyyətdədir. Qardaş Türkiyədə məşhur Çanaqqala Zəfərinin 100 illiyi qeyd edildiyi ərəfədə bu təntənəyə qatılan ölkələrin rəhbərləri beynəlxalq terror təşkilatı tərəfindən hədələnmişdi.

Buna görə də hazırkı mərhələdə beynəlxalq terrorizmə qarşı mübarizəni bütün ölkələr üçün prioritet hesab edən dövlətimizin başçısı iclasda bəyan etdi ki, yalnız səyləri birləşdirməklə qarşıya qoyulmuş məqsədlərə çatmaq mümkündür.

"Əlbəttə, risklərin minimuma endirilməsi, habelə beynəlxalq terrorizmi doğuran səbəblərin üzə çıxarılması, aşkar edilməsi istiqamətində çox işləmək lazımdır".

Prezident İlham Əliyev terrorizmi doğuran amillərdən söz açarkən bu beynəlxalq bəlanı doğuran digər səbəblərə də toxundu. Ölkə rəhbəri qeyd etdi ki, əlbəttə, daxili səbəblər də mövcuddur. "Daxili səbəb isə yoxsulluq, savadsızlıq, gerilik, radikalizm, fundamentalizm, sosial ədalətsizlikdir. Əgər bu və ya digər ölkədə bu obyektiv səbəblər yoxdursa, orada xaricdən göstərilən bütün səylərə baxmayaraq, terrorizmin yetişməsi üçün zəmin yaratmaq çox çətin olacaq. Buna görə də sosial-iqtisadi xarakterli məsələlərin, təhlükəsizliyin möhkəmləndirilməsi, terrorizmə qarşı mübarizə məsələlərinin həlli üzərində səylərin birləşdirilməsi - bütün bunlar bu gün ölkələrimizin əsas gündəliyini təşkil edir".

Daim qonşu dövlətlərlə dinc yanaşı yaşamaq prinsiplərinə sadiq qalan ölkəmiz bərabərhüquqlu əlaqələrin inkişafına üstünlük verir. Cənubi Qafqazın ən zəngin təbii sərvətlərə və iqtisadi potensiala, həmçinin, əlverişli geosiyasi imkanlara malik ölkəsi olan Azərbaycanın sülhsevər mövqeyi dövlətimizin başçısı tərəfindən Müstəqil Dövlətlər Birliyi Dövlət Başçıları Şurasının növbəti iclasında bir daha ortaya qoyuldu:

- Biz region ölkələri ilə sülh və həmrəylik şəraitində yaşamaq, inkişaf etmək, uşaqların savadlı, təhsilli, sağlam böyüməsini istəyirik. Bunun üçün bizə təhlükəsizlik lazımdır. Buna görə də Azərbaycan beynəlxalq terrorizmlə mübarizə üçün bundan sonra da səylərini əsirgəməyəcək.

**"Azərbaycan Ordusu"**

# Misir mətbuatında ölkəmizin nailiyyətləri barədə danışılıb

***Azərbaycanın Misirdəki səfiri Şahin Abdullayevin 18 oktyabr - Azərbaycanın Müstəqillik Gününə dair məqaləsi Misirin nüfuzlu "Əl-Yaum Əs-Sabi" internet qəzetində və "Şəbab Əl-Nil" internet saytında dərc edilib.***

Məqalədə 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul edildiyini bildirən Ş.Abdullayev Şərqdə ilk respublika olan Azərbaycan Demokratik Cümhuriyyətinin varisi kimi ölkəmizin müstəqilliyini yenidən bərpa etdiyini, beynəlxalq aləmə sürətlə inteqrasiya edərək qısa müddətdə BMT-yə və ATƏT-ə üzv qəbul edildiyini diqqətə çatdırıb. Eyni zamanda, ölkəmizin tarixən tərkib hissəsi olduğu və birgə irsi bölüşdüyü İslam dünyası ilə əlaqələrini bərpa etdiyini və əməkdaşlıq münasibətləri qurduğunu qeyd edib.

Azərbaycan Demokratik Cümhuriyyətinin süqutuna şərait yaradan problemlərin müstəqilliyini yeni elan etmiş Azərbaycan Respublikasının da qarşısına çıxdığını qeyd edən səfir Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü, torpaqlarımızın 20 faizini işğal etməsi barədə məlumat vermiş, yenicə əldə edilmiş milli müstəqilliyimizin xarici təzyiqlər və daxili çəkişmələr nəticəsində təhlükə altına düşdüyünü bildirib.

Belə çətin və keşməkeşli vaxtda Azərbaycan xalqının böyük təkidlə Heydər Əliyevi ölkə rəhbərliyinə dəvət etməsini, məhz ulu öndərin müdrikliyi və bacarığı sayəsində Azərbaycanın qısa müddətdə problemləri aradan qaldıraraq davamlı inkişaf mərhələsinə qədəm qoyduğunu bildirən Ş.Abdullayev ümummilli liderin uzaqgörən siyasətinin və əvəzsiz xidmətlərinin nəticəsi olaraq mərkəzi hakimiyyətin gücləndiyini, xarici əlaqələrin genişləndiyini, Ermənistan ilə atəşkəs sazişinin imzalanmasına nail olunduğunu, ölkədə demokratikləşmə prosesinin başlandığını, "Əsrin müqaviləsi"nin imzalandığını, Azərbaycanın yeni neft strategiyasının əsasının qoyulduğunu oxucuların diqqətinə çatdırıb.

Ümummilli lider Heydər Əliyevin siyasi kursuna sadiq qalan Azərbaycanın dünyanın ən sürətlə inkişaf edən ölkələrdən biri olduğunu qeyd edən səfir ölkəmizin neft və qaz boru kəmərləri vasitəsilə Şərq-Qərb enerji dəhlizində və Avropanın enerji təhlükəsizliyində aparıcı rolu, hökumətin gənclər siyasəti, elm-təhsil və "qara qızıl"ın insan kapitalına çevrilməsi istiqamətində həyata keçirdiyi ardıcıl tədbirlər barəsində məlumat verib.

Ölkə rəhbərliyi tərəfindən qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində görülən məqsədyönlü tədbirlərə toxunan Ş.Abdullayev 2003-cü il ilə müqayisədə 2012-ci ildə Azərbaycanda yoxsulluğun 49 faizdən 5 faizə düşdüyünü, ölkəmizin xarici valyuta ehtiyatlarının 55 milyard ABŞ dollarından artıq olduğunu və son illər ərzində iqtisadiyyatın 3 dəfə artdığını vurğulamış, müstəqillik illərində ölkəyə böyük həcmdə investisiyaların cəlb edildiyini bildirib.

Məqalədə Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafı, biznes mühitinin daha da yaxşılaşdırılması, informasiya və kompüter texnologiyalarının inkişafı sahəsində regional mərkəzə çevrilməsi barədə ətraflı məlumat verən səfir müstəqilliyinin ilk illərində xarici donorlardan və humanitar yardımlardan asılı olan Azərbaycanın bu gün beynəlxalq humanitar və sülhməramlı əməliyyatlara töhfə verən dövlətə çevrildiyini qeyd edib.

Səfir Azərbaycanın müstəqilliyinin əbədi və dönməz olduğunu vurğulayıb, ölkəmizi daha böyük perspektivlərin gözlədiyini oxucuların diqqətinə çatdırıb.

**AZƏRTAC**

# İtaliyanın "İl Giornale" qəzeti Qafqazın inkişafında Azərbaycanın rolundan yazır

***İtaliyanın "İl Giornale" qəzetinin saytında Qafqaz regionunun inkişafında Azərbaycanın rolundan bəhs edən məqalə yayılıb.***

Məqalənin əvvəlində deyilir ki, Qafqaz regionu hazırda dünya iqtisadiyyatı üçün fundamental əhəmiyyət kəsb edən bir mərkəzdir. Xüsusilə, Azərbaycan, Gürcüstan Avropa üçün önəmli aktora çevrilib.

Müəllif Cənubi Qafqazı son illər nəqliyyat, o cümlədən dəmir yolu, neft və qaz boru kəmərlərinin kəsişdiyi bir şəbəkəyə bənzədir. Diqqətə çatdırılır ki, ümumiyyətlə, bu bölgə tarixin bütün dövrlərində Asiya ilə Avropa arasında bir kəsişmə nöqtəsi, sivilizasiyaların və mədəniyyətlərin qovuşduğu məkan olub. Bütün bu geosiyasi amillərin kontekstində xüsusilə Azərbaycan, Gürcüstan və Türkiyə arasındakı müttəfiqliyə nəzər salmaq lazımdır. Həmin ölkələr arasında iqtisadi əməkdaşlıqla yanaşı, siyasi əlaqələr də yüksək səviyyədədir. Bu üç ölkənin iştirakı ilə önəmli layihələr reallaşmaqdadır. Bu sırada Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri, TANAP kimi layihələri xüsusi vurğulamaq lazındır. Müəllif 2016-cı ildə yekunlaşması nəzərdə tutulan Bakı-Tbilisi-Qars dəmir yolu xəttini bu ölkələri birləşdirən strateji şəbəkə adlandırır.

Dağlıq Qarabağ münaqişəsinə toxunulan yazıda bildirilir ki, Azərbaycanın Dağlıq Qarabağ bölgəsini Ermənistanın işğal etməsi nəticəsində uzun illər davam edən gərginlik Cənubi Qafqazın əsas problemidir. Münaqişə nəticəsində Ermənistan Qafqazda reallaşan bütün layihələrdən kənarda qalıb, regionun iqtisadi inkişafında iştirak edə bilmir. Bu da ölkənin daxilində ciddi böhranlara səbəb olur. Yerevanda keçirilmiş son nümayişlər bu böhranın əsas göstəricilərindən biridir.

# Müdafiə naziri hərbçilərin VI dünya oyunlarının iştirakçıları ilə görüşüb



***Oktyabrın 17-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Koreya Respublikasının Munqyeonq şəhərində keçirilən Beynəlxalq Hərbi İdman Şurasının (CİSM) təşkilatçılığı ilə hərbçilərin VI dünya oyunlarında medal qazanan idmançılar və onların məşqçiləri ilə görüşüb.***

Müdafiə naziri qazanılmış böyük və inamlı qələbə münasibəti ilə idmançıları, məşqçiləri və mütəxəssisləri təbrik edib.

Hərbi idmançılarımızın bu uğurunu yüksək qiymətləndirən nazir Azərbaycanın dünyanın aparıcı idman ölkələri sırasında olduğunu vurğulayıb.

"Ölkəmiz bütün istiqamətlərdə olduğu kimi, idman sahəsində də nailiyyətlər əldə edir. Qazanılan müvəffəqiyyətlər ölkəmizdə idmana yüksək səviyyədə dövlət dəstəyinin göstəricisi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısının nəticəsidir.

Siz, Silahlı Qüvvələrin təmsilçiləri kimi, Koreyada ölkəmizin bayrağını yüksəltmək və dövlət himnimizi səsləndirməklə Azərbaycan əsgərinin döyüş əzmini və qələbə ruhunu bir daha sübut etmiş oldunuz", - deyə Müdafiə naziri bildirib.

Qələbədə əməyi olan idmançı, məşqçi və mütəxəssisləri təbrik edən Müdafiə naziri bundan sonra da Silahlı Qüvvələrdə idmana daha çox diqqət ayrılacağı, yeni tikilən hərbi şəhərciklərdə idman komplekslərinin inşa ediləcəyini də diqqətə çatdırıb.



Gələcəkdə keçiriləcək beynəlxalq yarışlarda ölkəmizi layiqincə təmsil etməyi idmançılara arzu edən Müdafiə naziri qələbədə zəhməti keçənlərə təşəkkür edərək onlara qiymətli hədiyyələr təqdim edib.

Sonda xatirə fotosu çəkilib.

Xatırladaq ki, yarışlarda Azərbaycanı Mərkəzi Ordu İdman Klubunun sərbəst və yunan-Roma güləşi, cüdo və taekvondo idman növləri üzrə komandaları təmsil ediblər.

Ümumiyyətlə, 120 ölkədən 8100 idmançının iştirak etdiyi hərbçilərin VI dünya oyunlarında Azərbaycan təmsilçiləri 12 medal qazanaraq (2 qızıl, 4 gümüş və 6 bürünc) ümumi hesabda 15-ci yeri tutub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## General Səməd bəy Mehmandarovun 160 illik yubileyi ilə əlaqədar silsilə tədbirlər keçirilir

Görkəmli hərbi xadim general Səməd bəy Mehmandarovun 160 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 sentyabr 2015-ci il tarixli sərəncamının icrası ilə əlaqədar tədbirlərin planlaşdırılması və keçirilməsi məqsədilə Müdafiə nazirinin əmrinə əsasən təşkilat komitəsi yaradılıb.

Təşkilat komitəsinin ilk iclasında Silahlı Qüvvələrin birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində tədbirlərin keçirilməsi ilə bağlı qarşıda duran tapşırıqlar müzakirə edilib.

Təhsil, Mədəniyyət və Turizm Nazirliklərinin təklifləri də nəzərə alınmaqla hazırlanan tədbirlər planına əsasən, qarnizonlarda, xüsusi təyinatlı təhsil müəssisələrində, hərbi birlik, birləşmə və hissələrdə, eləcə də ölkənin təhsil və mədəni-maarif ocaqlarında minlərlə hərbi qulluqçu və mülki əhalinin iştirakı ilə elmi-praktik konfrans, yubiley mərasimləri, yarış müsabiqələri, viktorinalar, səyyar foto sərgilər və müxtəlif tədbirlər keçiriləcək.

İlin sonunadək davam edəcək silsilə tədbirlərə artıq Silahlı Qüvvələrdə start verilib.

## Hərbi hissələrdə "Açıq qapı günü" təşkil olunacaq

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq göstərişinə əsasən, oktyabrın 25-də saat 11.00-da bütün hərbi hissələrdə əsgər valideynləri və yaxınları üçün "Açıq qapı günü" keçiriləcək.

Ziyarətçilər hərbi hissələrdə şəxsi heyətin yaşayış və məişəti üçün yaradılan şəraitlə yaxından tanış olmaq, xidməti və inzibati binalara, eləcə də əsgər yataqxanaları və yeməkxanalarına baş çəkmək imkanı əldə edəcəklər.

"Açıq qapı günü"ndə hərbi hissə komandanlığı ilə valideynlərin görüşünün təşkili, konsert proqramları və digər mədəni-kütləvi tədbirlərin keçirilməsi planlaşdırılır.

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edirlər

Oktyabrın 19-dan 23-dək Brüssel şəhərində (Belçika Krallığı) tərəfdaş ölkələrin qərargah zabitləri üçün NATO ilə tanışlıq kursu, Oberammerqau şəhərində (Almaniya Federativ Respublikası) konsepsiyaların hazırlanması və tətbiq edilməsi kursu keçirilir.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri də iştirak edirlər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***19 oktyabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 86 dəfə pozub.

Goranboy rayonunun Tapqaraqoyunlu, Gülüstan, Talış, Tərtər rayonunun Çiləbürt, Qızıloba, Ağdam rayonunun Kəngərli, Sarıcalı, Şuraabad, Mərzili, Novruzlu, Cəvahirli, Qaraqaşlı, Şıxlar, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Əbdürrəhmanlı, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 86 dəfə atəş zərbəsi endirib.

***20 oktyabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 93 dəfə pozub.

Goranboy rayonunun Tapqaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Ağdam rayonunun Kəngərli, Sarıcalı, Şuraabad, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 98 dəfə atəş zərbəsi endirib.

*Döyüş hazırlığı*

# Hər yeni uğur qələbəyə inam doğurur

***Baş leytenant Elvin Əmiraslanovun komandiri olduğu batareyaya gələndə o, şəxsi heyətlə birlikdə atəş yerində idi. Topçuların mövqeləri qərargahdan bir qədər aralıda yerləşir. Həmin gün hava buludlu idi və göyün üzünü örtmüş qara buludlar boşalmağa sanki fürsət axtarırdı. Arabir yağış damcıları leysanın gəlməsindən xəbər verirdi. Burada günün istisinə, qışın şaxtasına və payızın aramsız yağışlarına qarşı gərəkli tədbirlər görüldüyünə görə əsgərlər heç nəyin dərdini çəkmirdilər.***

***Bizi atəş mövqeyində baş leytenant E.Əmiraslanov qarşıladı və gün ərzində cəbhə xəttində heç bir hadisənin baş vermədiyi barədə məlumat verdi. Onun komandiri olduğu bölmənin son günlər atəşkəsi pozan düşmənə sarsıdıcı zərbələr endirdiyi barədə eşitmişdim. Qərargahda həmin döyüşçülərlə görüşmək istədiyimi bildirmişdim. Polkovnik-leytenant Elşən Əliquliyev bunun üçün heç bir problemin olmadığını bildirdi və həmin döyüşçülərlə görüşümü təşkil etdi.***



Topçularımız düşmənə dəqiq zərbələr endirilə biləcək yerdə qərar tutmuşdular. Əsgərlər heyətlərə bölünərək topların yanında dərs cədvəlinə uyğun taktiki məşq edirdilər. Baş leytenant E.Əmiraslanov isə heyətlərin hərbi bilikləri necə mənimsədiyinə nəzarət edirdi. O, növbə ilə heyətlərin yanına gəlir, verilən komandanı necə yerinə yetirdiklərinə diqqət edirdi. Bacarıqlı zabitlə qısa tanışlıq zamanı məlum oldu ki, o, əslən ermənilərin işğalı altında olan Zəngilan rayonundandır. Ancaq valideynləri müharibədən əvvəl Sumqayıta köçüb, orada ev-eşik sahibi olublar. Həmsöhbətim deyir ki, Sumqayıtda yaşasa da, həmişə ata-baba yurdunun həsrətində olub. Elə hərbi peşəyə onu gətirən səbəb də buradan irəli gəlir. Əvvəlcə C.Naxçıvanski adına Hərbi Liseydə, sonra isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb. Hər iki hərbi təhsil ocağında aldığı biliklər onun gələcəyi üçün böyük rol oynayıb. Baş leytenant E.Əmiraslanov söylədi ki, əgər belə olmasaydı, bir neçə gün bundan əvvəl aldığım komandanı yüksək səviyyədə yerinə yetirə bilməzdim.

- Düşmən hər gün mövqelərimizi bir neçə dəfə atəşə məruz qoyur, - deyir zabit. - Belə olan halda biz də ermənilərə cavab atəşi açmaq məcburiyyətində qalırıq. Bir neçə gün bundan qabaq mənə qərargahdan əmr gəldi ki, düşmənin atəş nöqtələri məhv edilməlidir. Hədəflərin yerini bir daha dəqiqləşdirib, topları döyüşə hazır vəziyyətə gətirdim. İlk atılan mərmi düz hədəfə düşdü. Bir neçə sərrast atəşdən sonra düşmən susmağa məcbur oldu. Sonradan məlum oldu ki, düşmən xeyli itki verib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov atəşkəsi pozan düşmənə qarşı sərt tədbirlərin görüləcəyini, torpaqlarımızı işğal edən yağıların bundan sonra da ciddi itkilərə məruz qalacağını söyləyib. Odur ki, cəbhədə hər dəfə düşmən böyük itkilərlə üz-üzə qalır.

Həmsöhbətim döyüş tapşırığını yerinə yetirən zaman fərqlənən top heyətlərinə gəlincə qeyd etdi ki, onun tabeliyində olan heyətlərin hamısı yüksək döyüş aparmaq gücündədir. Hər dəfə döyüş tapşırığı istədiyimiz səviyyədə icra edilir. Bu dəfə isə iki top heyəti xüsusi fərqlənib. Onlar general-mayor Hikmət Həsənov tərəfindən qol saatı ilə mükafatlandırılıb. Daha da ruhlanan topçular istənilən döyüş tapşırığını bundan sonra da yüksək səviyyədə yerinə yetirəcəklər.

Mükafat alan top komandirlərindən Rahib Alıyev əslən Laçındandır. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu deyir ki, döyüş əmri verilən gün axşama yaxın idi. "Qəfil tapşırıq aldıq ki, müəyyən edilmiş hədəflərə topdan atəş açmalıyıq. Komandiri olduğum heyətlə dərhal məhv ediləcək hədəflərin koordinatlarını dəqiqləşdirib nəzərdə tutulan vaxtdan da tez topu döyüş vəziyyətinə gətirdiyim barədə yuxarı komandirə məlumat verdim. Çox keçmədi ki, "Atəş!" əmrini aldım. İlk atışımız uğurlu alındı. Mərmi düz hədəfə düşmüşdü. Daha sonra bir neçə dəfə də mərmini hədəflərə atdıq. Həmin hadisədən sonra ermənilərdən xəbər çıxmadı".



Əsgər Zahir Siracov isə heyətin baş tuşlayıcısıdı. O da döyüş tapşırığının yüksək səviyyədə icra edilməsindən məmnundu. Zahir həm də idmançıdı. Hərbi xidmətə gəlməmişdən əvvəl kinq-boks üzrə bir çox yarışlarda ölkəmizi təmsil edib. Hətta 2014-cü ildə Monqolustanda keçirilən dünya birinciliyində qızıl medal qazanıb.

Bəli, əsgərlərlə tanış olduqca onların nəyə qadir olduqlarını öyrənirsən. Döyüşçülərin əldə etdikləri uğurlar, bu gün düşmənlə üz-üzə gecə-gündüz demədən apardıqları döyüş növbətçiliyi onların vətənpərvərliyindən, qələbəyə olan inamdan xəbər verir. İnanırıq ki, bundan sonra da topçularımız düşmənə göz açmağa imkan verməyəcəklər.

**Mayor Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# "Məqsədimiz torpaqlarımızı düşməndən azad etməkdir"

***Silahlı Qüvvələrimizin artilleriya təyinatlı hərbi hissələrinin şəxsi heyəti qarşıya qoyulan döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirir. Əsas məqsəd şəxsi heyətin döyüş əzmini yüksəltmək və topçuların peşəkarlığını artırmaqdır. Həyata keçirilən məqsədyönlü tədbirlər, təlim və məşqlər döyüş hazırlığı istiqamətində atılan uğurlu addımlardır.***

Zabit Elşən Vəliyev bildirdi ki, başlıca məqsəd şəxsi heyətimizin yüksək döyüş əzminə malik olmasıdır. "Bu istiqamətdə keçirilən təlim və məşqlər göstərir ki, artilleriyaçılar döyüş əmrini yerinə yetirməyə qadirdirlər. Ötən günlər keçirilən atış təlimlərində şəxsi heyətin döyüş hazırlığı yenə də komandanlıq tərəfindən yüksək qiymətləndirildi".

Söhbət zamanı öyrəndik ki, zabit Anar Haqverdiyevin komandiri olduğu batareya həmişə təlim və məşqlərdə fərqlənir. Ötən təlimdə də batareyanın şəxsi heyəti yüksək döyüş hazırlığı nümayiş etdirib.

Zabit A.Haqverdiyev ulu öndər Heydər Əliyevin adını daşıyan Azərbaycan Ali Hərbi Məktəbinin yetirməsidir. Onun uğurlarında böyüyüb boya-başa çatdığı ailənin böyük rolu var. Hərbçi ailəsinin yetirməsi olan Anar bu gün ata yolunun davamçısıdır. Atası bir vaxtlar Silahlı Qüvvələrimizin zabitlərindən olub.

Anar atasının yolunu davam etdirməkdən qürur duyduğunu bildirərək dedi:

- Zabit kimi xalqıma, Vətənimə xidmət etməyi həyatımın, ömrümün mənası hesab edirəm. Ulu öndərimiz zabit peşəsini bütün peşələrdən qiymətli hesab edərək demişdi ki, bu peşəni seçənlərə bugünkü və gələcək nəsillər minnətdar olacaqdır.

Batareyanın şəxsi heyəti taktiki-texniki, ümumqoşun hazırlığında da daim uğurlar qazanır. Şəxsi heyətin hər bir üzvü əsl Vətən müdafiəçisi kimi formalaşmağa çalışır. Bu işdə gizir Pərviz İdrisovun, Bəhruz Rüstəmovun, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Paşa Hüseynovun və başqalarının xidmətləri az deyil.



Taleyini ordu həyatı ilə bağlayan gizir Bəhruz Rüstəmov döyüş maşınının komandiridir. Öhdəsində olan texnikanın taktiki-texniki xüsusiyyətlərini mükəmməl bilir.

- Ötən hər gün bizi torpaqlarımızı işğaldan azad edəcəyimiz günə yaxınlaşdırır, - deyir gizir. - Ordumuzun hərbi qüdrətinin artırılması və əsgərlərimizin yüksək vətənpərvərlik ruhu deməyə əsas verir ki, qələbə bizimlədir.

Paşa Hüseynov da silahdaşının fikirləri ilə həmrəy olduğunu bildirərək deyir:

- Əsas məqsədimiz torpaqlarımızı düşməndən azad etməkdir. Bütün səylərimizlə bu mərama, məqsədə xidmət edirik. Çünki torpaqlarımız xilasını öz igid, vətənpərvər, qeyrətli oğullarından gözləyir.

Şəxsi heyət arasında olan gənc əsgərlər də təcrübəli zabit və gizirlərdən artilleriyanın sirlərini həvəslə öyrənirlər. Fikrət Doluxanov bir neçə aydır ki, xidmətdədir. Heyət nəfəri kimi vəzifəsinin öhdəsindən bacarıqla gəlir. Elçin Süleymanov, Kamran Nurullayev, Toğrul Əhmədli və başqaları artıq ordu həyatına alışıblar. Nizam-intizamlı, mətin əsgərlər kimi tanınırlar. Gənc əsgərlər Vətənə layiq döyüşçü kimi xidmət edəcəklərini söylədilər.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

# Şəhid ailələrinə hər zaman diqqət və qayğı göstərilir

***Azərbaycan Respublikasının müstəqilliyi uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə dövlətimizin rəhbərliyi, eləcə də Müdafiə Nazirliyi tərəfindən hər zaman xüsusi diqqət və qayğı göstərilir, onların mövcud problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir.***

1997-ci ildə şəhid olmuş bir qrup kəşfiyyatçımızın valideynləri və ikinci qrup əlil Aqil Əhmədov Müdafiə Nazirliyinin idarə rəisi general-mayor Rasim Əliyevlə görüşüb.

Onların mövcud problemlərini dinləyən idarə rəisi digər şəhid ailələri kimi onların da Müdafiə nazirinin diqqət və qayğısından kənar olmadıqlarını bildirərək, lazımi köməkliyin göstəriləcəyini qeyd edib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**



## Hüquq guşəsi

# Soruşun, cavab verək



***- Növbəti məzuniyyət kimlərə verilir?***

*- müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularına - müddətli həqiqi hərbi xidmət ərzində - bir dəfə 10 gün;*
*- müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularına - hər təqvim ili üçün 30 gün;*
*- gizirlərə və miçmanlara - hər təqvim ili üçün 35 gün;*
*- zabitlərə - hər təqvim ili üçün 45 gün.*

Silahlı Qüvvələrdə 20 və daha artıq təqvim ili xidmət etmiş hərbi qulluqçulara (zabitlərdən başqa) 40 günlük növbəti məzuniyyət verilir.

Silahlı Qüvvələrdə 20 və daha artıq təqvim ili xidmət etmiş, yaşına və xəstəliyə görə ehtiyata və ya istefaya buraxılan hərbi qulluqçulara hərbi xidmətdən buraxılmaqla bağlı məsələləri həll etmək üçün növbəti məzuniyyət 3 ay müddətində verilir.

Növbəti məzuniyyət hər bir hərbi qulluqçuya təqvim ili ərzində verilir. Ötən il ərzində müstəsna səbəblərə görə məzuniyyət verilmədikdə, xüsusi hallarda korpus (diviziya) komandiri və ona bərabər və ondan yuxarı birbaşa rəislərin icazəsi ilə ötən il üçün məzuniyyət yeni ilin birinci rübündə verilə bilər. Təhsil almaq və xidmət müddəti müəyyən edilmiş yerlərdən dəyişilmək üçün namizədlikləri təsdiq edilmiş hərbi qulluqçulara növbəti məzuniyyət elə hesabla verilir ki, onlar yola düşənə qədər həmin məzuniyyətdən bütünlüklə istifadə edə bilsinlər.

Hərbi qulluqçu (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından başqa) təqvim ilində, habelə həqiqi hərbi xidmətdə olduğu dövrün digər təqvim illərində bu maddədə nəzərdə tutulmuş növbəti məzuniyyətdən istənilən səbəbdən istifadə etmədikdə, ona həmin təqvim ili, habelə həqiqi hərbi xidmətdə olduğu dövrün digər təqvim illəri üçün istifadə edilməmiş növbəti məzuniyyətə görə kompensasiya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada və məbləğdə ödənilir.

Xidməti zərurət olduqda hərbi qulluqçulara (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından başqa) növbəti məzuniyyət ümumi müddət çərçivəsində 2 dəfəyə verilə bilər.

Əlavə məzuniyyət almaq hüququ olan hərbi qulluqçuların bu məzuniyyəti onların növbəti məzuniyyəti ilə cəmlənərək birlikdə verilir. Bu zaman uşağının 3 yaşı tamam olanadək uşağa qulluq etmək üçün məzuniyyətdə olan qadın hərbi qulluqçulara verilən əlavə məzuniyyət istisna olmaqla məzuniyyətin ümumi müddəti 60 gündən artıq olmamalıdır. Xidmət üzrə yerdəyişmələrə görə əlavə məzuniyyət hüququnu itirən hərbi qulluqçulara növbəti məzuniyyət yerdəyişmə haqqında əmr hərbi hissəyə daxil olandan sonra yeni xidmət yerində (yeni vəzifəsinə görə) ümumi əsaslarla verilir. Bu halda birləşdirilmiş məzuniyyətdən istifadə etməmiş hərbi qulluqçulara ötən il üçün növbəti məzuniyyət xidmət yerini dəyişənə qədər ala biləcəkləri məzuniyyət müddəti qədər verilir.

Üzrsüz səbəblərə görə xidmətə çıxmayan hərbi qulluqçulara (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından başqa) növbəti məzuniyyət xidmətə çıxmadığı günlərin sayı qədər azaldılır. Belə olduqda növbəti məzuniyyət 15 gündən az olmamalıdır.

Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularına növbəti məzuniyyət 5 gündən artıq olmayaraq onların hauptvaxtda olduqları müddət qədər azaldıla bilər.

Növbəti məzuniyyətin azaldılması barədə qərarı məzuniyyət vermək hüququ olan komandir (rəis) qəbul edir. Bu qərar nizami hissə üzrə əmrlə rəsmiləşdirilir və hərbi qulluqçunun imzası alınmaqla ona elan edilir.

Hərbi qulluqçunun hərbi hissəni dəyişdiyinə görə növbəti məzuniyyətdən istifadə etməməsi haqqında arayış onun şəxsi işi ilə birlikdə hərbi qulluqçunun yeni xidmət yerinə göndərilir.

Həqiqi hərbi xidmətə ehtiyatdan könüllü və ya çağırışla qəbul edilmiş hərbi qulluqçulara (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından başqa) hərbi xidmətə qəbul edildikləri ildə (həqiqi hərbi xidmətdən ehtiyata və ya istefaya buraxıldıqları ildə) məzuniyyətin müddəti aşağıdakı kimi hesablanır:

*- müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının xidmət etdiyi hər tam ay üçün - 2,5 gün;*
*- gizirlərin və miçmanların xidmət etdikləri hər tam ay üçün - 3,0 gün;*
*- zabitlərin xidmət etdikləri hər tam ay üçün - 3,75 gün.*

Bu zaman 10 gün və artıq növbəti məzuniyyətə hüququ olan hərbi qulluqçulara məzuniyyətin keçiriləcəyi yerə gedib-gəlmək üçün yol xərci verilir və yola sərf olunacaq müddət məzuniyyətə əlavə olunur. 10 gündən az olan məzuniyyət hərbi qulluqçunun arzusu ilə növbəti ildə növbəti məzuniyyətlə birlikdə verilə bilər.

Ştatlı vəzifə tutmayan hərbi qulluqçulara (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından başqa) növbəti məzuniyyət verilərkən növbəti məzuniyyətin müddəti hərbi qulluqçuların müvafiq komandirlərin (rəislərin) sərəncamında olduğu ümumi müddətdən çıxılır.

Buraxılma zamanı növbəti məzuniyyət verilən hərbi qulluqçuların (həqiqi hərbi xidmət hərbi qulluqçularından başqa) ehtiyata, yaxud istefaya göndərilməklə əlaqədar hərbi hissənin şəxsi heyətinin siyahısından çıxarılması növbəti məzuniyyət bitdikdən sonra işlərin və vəzifənin təhvil-təsliminə zəruri olan müddət hesaba alınmaqla həyata keçirilir.

**Müdafiə Nazirliyi**
**Hüquq İdarəsi**

# Vətən sevgisi ən güclü silahdır

***Dağların uca zirvələrində düşmən qarşısında dayanan əsgərlərimizlə görüşmək üçün yola düşürük. Yol boyu dağlar, meşəliklər, gur çayların şırıltısı insana zövq verir. Yurdumuzun gözəl təbiətinin, səfalı guşələrlə zəngin olduğunun bir daha şahidi oluruq. Bir azdan "N" hərbi hissəsinə çatırıq.***

Budur, hərbi hissənin dəniz səviyyəsindən 3 min metrdən artıq yüksəklikdə yerləşən postundayıq. Burada olan nizam-intizam, ruh yüksəkliyi, şəxsi heyətin xoş ovqatı ilk andan hiss olunur. Qələbə ruhu, döyüş əzmi, Vətənə sevgi sanki əsgərlərin baxışlarından oxunur. "Bu post bizim evimizdir" deyirlər. Şəxsi heyətin ruh yüksəkliyi, mənəvi-psixoloji hazırlığı ordumuza olan dövlət qayğısının bariz nümunəsidir.

Milli Qəhrəmanımız Mübariz İbrahimovun xatirə guşəsi qarşısında əsgərlərlə söhbət aparan mayor Elxan Cavadovla salamlaşdıq. Uzun illərdir ordu sıralarında xidmət edən zabit döyüşçülərin psixoloji hazırlığının vacibliyindən söhbət açdı.

- Döyüşçüdə fiziki və döyüş qabiliyyətləri ilə yanaşı, nizam-intizam, yüksək mənəvi-psixoloji hazırlıq da əsas amillərdir, - dedi zabit. - Nizam-intizamın olmadığı yerdə döyüş qabiliyyətindən danışmaq olmaz. Mənəvi-psixoloji hazırlığı yetərincə olmayan ordu isə məğlubiyyətə düçar olur. Şəxsi heyətdə ruh yüksəkliyi, mənəvi-psixoloji təminat ordunun döyüşə hazır olmasının əsas göstəricilərindən biridir. Dövlətimizin hərbi qulluqçulara göstərdiyi diqqət və qayğı hərbi kollektivin döyüş əzmini daha da artırır. Əsgərlərimizin əhval-ruhiyyəsini yüksəltmək üçün onlara milli-mənəvi dəyərlərimizi aşılayır, tariximizdən, xalqımızın dəyərli keçmişindən söhbət açırıq.

Əlbəttə, ilk döyüş meydanı qəlblərimizdi. Hər kəs Vətən sevgisi ilə döyüşə atılmalıdır. Ali Baş Komandan İlham Əliyevin və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun diqqət və qayğısı nəticəsində ordumuzun şəxsi heyətinin qələbəyə inamı gündən-günə artır və belə bir mühitdə xidmət edən hərbi qulluqçularımızda əsl peşəkarlıq formalaşır. Zabit əsgərlərlə şəxsi igidlik və qəhrəmanlıqlardan söhbət edirdi. Düşməni bir göz qırpımında qorxuya salan Milli Qəhrəmanımız Mübariz İbrahimovun əfsanəvi şücaətindən fərəhlə danışırdı.

Vətən uğrunda Mübarizin yüksəldiyi zirvə, deyərdim ki, təkcə Azərbaycanın deyil, bütün türk dünyasının hər yerindən görünən ən uca zirvədir. Xidməti dövründə döyüş vərdişlərini dərindən mənimsəyən əsgər Şahin Məmmədov Mübariz haqqında fikirlərini bildirdi:

- Vətənin, xalqın başını uca edən onun igid oğullarıdır. Bu oğullar göstərdikləri igidlik və qəhrəmanlığa görə təkcə öz valideynlərinin, yaxınlarının deyil, bütün millətin fəxri olurlar. Biləsuvarın Əliabad kəndində dünyaya göz açan Mübariz də belə oğullardandır. Yaxşı xatırlayıram, onun göstərdiyi əfsanəvi qəhrəmanlıq erməniləri vəlvələyə salmışdı. Mübariz öz igidliyi ilə bir xalqın qürur mənbəyidir. Bu gün respublikamızın bütün bölgələrindən Milli Qəhrəmanımızın doğulduğu kəndə ziyarətə gəlir və valideynlərinə belə oğul böyütdükləri üçün minnətdarlıq edirlər. Mübariz hələ məktəb illərindən hərbçi olmaq, düşmənlərimizdən qisas almaq arzusunda olmuşdu. Öz müəlliminə "mən də böyüyəndə əsgər olub, düşmənləri qıracam" deyərdi. Uşaqlıqdan ürəyində böyütdüyü Vətən sevgisi, düşmənə nifrəti onu arzusuna qovuşdurdu. Düşmənlərdən qisasını aldı. Mübariz İbrahimov kimi qəhrəmanlarımızın adını daim yaşatmalı, zirvələrdə tutmalıyıq. Ürəklərimiz hər an torpaqlarımızı düşməndən azad etmək, qisas almaq arzusu ilə döyünməlidir. Mübarizin şeirində də dediyi kimi, Qarabağın qisasını almağa hər an hazır olmalıyıq:

Yurdun oğulları var,
Dünya olub onlara dar.
Qarabağın qisasın
Almağa məqam arar.

Əlçatmaz yüksəklikdə Vətəninin keşiyində dayanmış gənc döyüşçülərin üzlərindəki sevincdən, gülüşdən heç də el-obalarından, ailələrindən uzaqda olduqları hiss olunmurdu. Çünki onlar burada hər cür şəraitlə təmin olunublar. Ən başlıcası isə müqəddəs vəzifə yerinə yetirirlər - Ana Vətəni yağı düşməndən qoruyurlar. Onların vətənpərvərliyi, ruh yüksəkliyi, qələbəyə inam hissləri ordumuzun qarşıdakı zəfərindən xəbər verir. Gələcək görüşlərimizin düşməndən azad olacaq torpaqlarımızda baş tutacağı arzusu ilə onlarla sağollaşırıq. Hər birinə xidmətlərində uğurlar arzulayıb bu zirvələrdən xoş ovqatla ayrılırıq.




**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Respublikasının Ombudsmanı hərbi hissələrdə olub



***Müdafiə Nazirliyi ilə Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) aparatının birgə tədbirlər planına əsasən, cəbhəboyu zonada növbəti tədbir keçirilib.***

Ombudsman Elmira Süleymanovanın rəhbərliyi ilə aparatın əməkdaşları Göygöl, Daşkəsən, Gədəbəy və Tərtər rayonlarında, o cümlədən ön xətdə yerləşən hərbi hissə və bölmələrin şəxsi heyəti ilə keçirilən görüşlərdə Müdafiə Nazirliyi tərəfindən həyata keçirilən islahatlar, ordumuzun yüksək döyüş qabiliyyətinə malik olması, hərbi qulluqçuların hüquqlarının qorunması, onların sosial müdafiəsinin gücləndirilməsi, məişət şəraiti və mənəvi-psixoloji vəziyyətinin yaxşılaşdırılması istiqamətində atılan addımlar barədə fikirlərini diqqətə çatdırıblar.

Şəxsi heyət qarşısındakı çıxışlarda Vətənimizə, dövlətimizə sədaqətlə xidmət etmələri, düşmənin istənilən təxribatının qarşısının alınması üçün hər an ayıq-sayıq olmaları hərbi qulluqçulara tövsiyə edilib, eyni zamanda onları maraqlandıran suallar cavablandırılıb.

Təşkil olunan görüşlərdə hərbi xidmətdə və döyüş tapşırığının yerinə yetirilməsində fərqlənən bir qrup hərbi qulluqçuya qiymətli hədiyyələr təqdim edilib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# III Ümumfinlandiya Konfransında Azərbaycanın İkinci Dünya müharibəsində qələbəyə töhfəsi müzakirə edilib

Oktyabrın 17-də Finlandiyanın Espoo şəhərində "İki əsr bir yerdə" mövzusunda III Ümumfinlandiya Konfransı keçirilib. Finlandiyanın rusdilli diasporunun birləşməsi məsələlərinə həsr edilən konfrans rusiyalı Həmvətənlər Təşkilatının Ümumfinlandiya Şurası tərəfindən təşkil edilib.

Hər il keçirilən bu tədbirdə Azərbaycanı "Dostluq" Azərbaycan-Finlandiya cəmiyyətinin sədri Təranə Nəzərova, Rusiya-Azərbaycan Dostluq Mərkəzinin regional əlaqələr şöbəsinin rəisi Xaliq Aslanov təmsil ediblər.

Konfransın "Dinc yetmiş il" adlanan seksiyalarından biri İkinci Dünya müharibəsinin başa çatmasının 70 illiyinə həsr edilib.

"Dostluq" Azərbaycan-Finlandiya cəmiyyətinin sədri Təranə Nəzərova çıxışında qeyd edib ki, müharibədə Azərbaycanın təxminən 700 min vətəndaşı iştirak edib, onlardan 300 mini həlak olub və ya itkin düşüb. Həmin illərdə respublika əhalisinin sayı isə qocalar, qadınlar və uşaqlar da daxil olmaqla 2 milyon 800 min nəfər olub. Azərbaycan əsgərləri müharibədə böyük qəhrəmanlıq göstəriblər. Azərbaycandan 128 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 34 nəfər "Şöhrət" ordeninin üç dərəcəsinin tam kavaleri olub. Həzi Aslanov, İsrafil Məmmədov, Qafur Məmmədov, Baloğlan Abbasov və başqalarının qəhrəmanlığı dillər əzbəridir. T.Nəzərova Finlandiyada yaşayan, İkinci Dünya müharibəsinin 93 yaşlı veteranı, bakılı Adolf Malışkonun döyüş şücaətlərindən söz açıb. A.Malışko cəbhə yolunu 1942-ci ildə Kerçdən başlayıb, Krımda döyüşüb, müharibəni kapitan rütbəsi ilə başa vurub. Müharibə iştirakçısı özünün çoxsaylı mükafatları sırasında Adjimuşkay daş karxanasında alman desantının məhv edilməsi əməliyyatında iştirakına görə təltif olunduğu "Qırmızı Ulduz" ordenini xüsusilə seçir.

Rusiya-Azərbaycan Dostluq Mərkəzinin regional əlaqələr şöbəsinin rəhbəri Xaliq Aslanovun məruzəsi maraqla dinlənilib. O deyib ki, Böyük Vətən müharibəsində qələbənin qazanılmasında Azərbaycanın böyük rolu olub. Cəbhənin ehtiyacları üçün lazım olan neftin 80 faizini Azərbaycan verib. X.Aslanov diqqətə çatdırıb ki, Georgi Jukov xatirələrində dəfələrlə qeyd edib ki, "Azərbaycan nefti İkinci Dünya müharibəsində Sovet xalqını qələbəyə yaxınlaşdırıb".

# Xəbərlər: hadisələr, faktlar

## ABŞ İrana qarşı tətbiq etdiyi sanksiyaları aradan qaldırır




Oktyabrın 18-də ABŞ Prezidenti Barak Obama İrana qarşı iqtisadi sanksiyaların aradan qaldırılması prosesinə başlamaq üçün dövlət departamentinə, maliyyə, ticarət və energetika nazirliklərinə yazılı tapşırıq göndərib.

Bu barədə İran mətbuatı xəbər verib. Bildirilir ki, ABŞ Prezidenti adıçəkilən nazirliklərə göndərdiyi tapşırıqda razılaşmaya uyğun olaraq, rəsmi Vaşinqtonun üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsinin zəruriliyini vurğulayıb. Öhdəliklərin yerinə yetirilməsi üçün bütün zəruri tədbirlər səmərəli şəkildə və ABŞ qanunlarına uyğun olaraq həyata keçirilməlidir. Tapşırıqda diqqəti çəkən məqam ondan ibarətdir ki, ABŞ yalnız İranın nüvə proqramına qarşı tətbiq etdiyi sanksiyaları aradan qaldırmaq üçün tədbirlər görəcək. İrana "qanadlı" raketlər sistemi hazırladığına görə tətbiq edilən sanksiyalar isə hələlik qüvvədə qalacaq.

## İspaniya hərbi qüvvələrini Əfqanıstandan çıxarır



İspaniya hərbi qüvvələrini Əfqanıstandan çıxarmağa başlayıb. Bu barədə məlumatı İspaniya Müdafiə Nazirliyinin mətbuatla iş üzrə departamenti yayıb.

Məlumatda bildirilir ki, əməliyyat NATO-nun müvafiq qətnaməsinə əsasən, Əfqanıstan hökumətinə kömək edən ispan hərbi qüvvələrinin Heratdakı mövcudluğuna son qoyacaq. Son bir ildə ispan hərbçiləri hərbi baza və Herat aeroportunu qoruyurdular.

İspaniyanın hərbi hava qüvvələri oktyabrın 27-dək ərazini tərk etməlidir. Bundan əlavə, həmin tarixədək ölkədən 2 min tonluq müxtəlif hərbi silah və sursat çıxarılacaq. Oktyabrın 27-dən sonra İspaniyanın cəmi 20 hərbçisi NATO-nun Kabuldakı baş qərargahında qalacaq.

## Ukraynada sərnişin gəmisinin qəzaya uğraması nəticəsində 12 nəfər həlak olub



Ukraynada Odessa yaxınlığında sahildən 300 metr məsafədə "İvolqa" sərnişin gəmisinin çevrilməsi 12 nəfərin ölümünə səbəb olub.

Gəminin göyərtəsində 36 nəfərin olduğu bildirilib. Xəsarət alan 20 şəxs xəstəxanaya yerləşdirilib. İtkin düşmüş iki nəfərin axtarışları davam etdirilir. Hadisəyə dənizdə güclü fırtınanın səbəb olduğu göstərilir. Bununla yanaşı, gəmidə xilasedici jiletlərin lazımi sayda olmaması ölənlərin sayının artması ilə nəticələnib.

## Yaponiyada ilk dəfə Baş nazir ABŞ-ın təyyarədaşıyan gəmisinə qalxıb



Oktyabrın 18-də Yaponiyanın Baş naziri Şinzo Abe ABŞ-ın "Ronald Reyqan" atom təyyarədaşıyan gəmisinin göyərtəsinə qalxıb. Xəbər verdiyimiz kimi, həmin gəmi cari ayın əvvəlində Tokionun cənubunda yerləşən Yokosuka hərbi bazasına daimi xidmətə daxil olub. Bununla da Şinzo Abe ABŞ atom təyyarədaşıyan gəmisinin göyərtəsinə qalxan ilk yapon Baş nazir olub.

Yerli KİV-lərin məlumatına əsasən, təyyarədaşıyan gəmi ilə tanış olan Baş nazir ABŞ Hərbi Dəniz Qüvvələrinin komandanlığı ilə də görüşüb. Yaponiya Baş nazirinin ABŞ Hərbi Dəniz Qüvvələrinə məxsus gəmini ziyarət etməsi iki ölkə arasında hərbi ittifaqın möhkəmlənməsinin bariz nümunəsi olub.

## İsveçrədə parlament seçkilərində sağ-millətçi düşərgə qələbə qazanıb



Oktyabrın 18-də İsveçrə Konfederasiyasında parlament seçkiləri keçirilib. Səsvermənin ilkin nəticələrinə əsasən, sağ-millətçi düşərgəni təmsil edən İsveçrə Xalq Partiyası seçkilərdə qələbə qazanıb. Seçicilərin 29,5 faizinin rəğbətini qazanan partiya parlamentdəki mandatlarının sayını 11 yer artıraraq, 65-ə çatdırıb.

Sosial Demokratlar Partiyası seçkilərdə ikinci olub. Bu partiya 18,9 faiz səs toplayaraq, parlamentdəki 200 deputat yerindən 44-nə yiyələnib. Sonrakı yerləri isə sağçı-liberal Azad Düşüncəli Demokratlar Partiyası (16,3 faiz və ya 33 yer), mühafizəkar-mərkəzçi Xristian-Demokrat Xalq Partiyası (12,1 faiz və ya 28 yer) və Yaşıllar Partiyası (6,9 faiz və ya 10 yer) tutub.

Əgər seçkilərin yekun nəticələri ilkin rəqəmlər və proqnozlarla üst-üstə düşərsə, o zaman sağçı düşərgəni təmsil edən partiyalar parlamentin aşağı palatasında (Milli Şurada) 200 yerdən 101-nə sahib olacaq.

## Filippində qasırğa göyərtəsində 41 nəfər olan sərnişin katerini aşırıb



Filippində göyərtəsində 36 sərnişin və 5 heyət üzvünün olduğu sərnişin kateri qəzaya uğrayıb.

Hadisə zamanı aralarında 2 uşağın və 2 heyət üzvünün də olduğu 7 nəfər həyatını itirib, daha 2 nəfər isə itkin düşüb. Sahil mühafizə xidmətinin nümayəndəsinin sözlərinə görə, kater Gimaras əyalətinə gedirmiş.

## Unikal aeroport ildə 13 milyon sərnişin qəbul edəcək



"Foster + Partners" memarlıq şirkətinin layihəsi əsasında Küveytdə unikal beynəlxalq aeroportun inşası nəzərdə tutulub. Şirkət bu maraqlı işinə görə, ekologiya və enerji səmərəliliyi baxımından "qızıl" sertifikat almaq niyyətindədir. Orijinal layihəyə malik aeroportun terminalı 3 simmetrik hissədən - "qanadlardan" ibarətdir. Hər "qanad"ın uzunluğu isə 1,2 kilometrdir.

Küveyt isti yer olduğundan burada, həmçinin, hündürlüyü 25 metr olan qəribə konstruksiyalı dam örtüyü sərnişinləri günəşin qızmar şüalarından qoruyacaq. Dam üzərində quraşdırılmış pəncərələr gündüz vaxtı günəş şüalarını dəf edəcək, panellər isə əksinə, günəş enerjisini toplayacaq. Tikintisi başa çatdırıldıqdan sonra aeroport ildə təqribən 13 milyon sərnişin qəbul edəcək.

**AZƏRTAC-ın**
**materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

General Səməd bəy Mehmandarov - 160

# Vətənsevər sərkərdə

***Ötən yüzillikdə Azərbaycan dövlətçiliyi tarixində əlamətdar hadisələr baş verdi. Şərqdə ilk demokratik respublikanın yaranması bu dövrdə baş verən hadisələrin fövqündə dayandı. 28 may 1918-ci ildə Tiflisdə elan olunan Azərbaycan Xalq Cümhuriyyətinin cəmi 23 ay yaşamasına baxmayaraq, 71 il sonra 18 oktyabr 1991-ci ildə yenidən Azərbaycan öz dövlət müstəqilliyini bərpa edib. "Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında Konstitusiya aktı"nda bolşevik işğalına - tarixi təcavüzə siyasi qiymət verildi: "1920-ci il aprelin 27-28-də RSFSR-in Qırmızı Ordusunun Azərbaycana təcavüzü, respublika ərazisini zəbt etməsi, beynəlxalq hüququn subyekti olan Azərbaycan Xalq Cümhuriyyətini devirməsi Rusiyanın müstəqil Azərbaycanı işğal etməsi hesab edilsin". Ümummilli liderimiz Heydər Əliyevin imzaladığı 22 may 1998-ci il tarixli fərmanında müasir Azərbaycan Ordusunun da cümhuriyyət ordusunun (1918-ci il 26 iyun) varisi olduğu öz təsdiqini tapdı.***



Qırmızı ordunun birbaşa hərbi müdaxiləsi Azərbaycan Xalq Cümhuriyyətini süquta uğratdı. Belə bir şəraitdə, yəni açıq silahlı təzyiq altında qalan Azərbaycan parlamenti 1920-ci il aprelin 27-də bolşeviklərin təqdim etdikləri ultimatumu gündəliyə çıxardı və qızğın müzakirələrdən sonra hakimiyyətin 6 şərtlə Azərbaycan İnqilab Komitəsinə verilməsi barədə qərar qəbul etdi. 3-cü şərtdə deyilirdi: "Azərbaycan Ordusu buraxılmayacaq". Lakin bolşeviklər razılaşdırılmış şərtlərə əməl etməyərək, milli ordu hissələrini talan etdilər. Bir zamanlar "Nə xoşbəxt insanam ki, ixtiyar yaşımda millətimin ordusunu yaratmaq mənə nəsib oldu. Qurduğumuz orduya komandanlıq edirəm. Mənim komandanlıq etdiyim orduya qarşı Denikin cəsarət edib vuruşmaz. Narahat olmayın və işinizlə məşğul olun" söyləyən Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri tam artilleriya generalı Səməd bəy Mehmandarov silahdaşları ilə birlikdə qısa müddətdə min bir çətinliklə qurduqları ordunun kommunist rejimində dağılmayacağına və xalqının keşiyində dayanacağına inanırdı. Oxucuların diqqətinə çatdırmaq istəyirəm ki, o, 1918-ci il 25 dekabrdan 1920-ci il 27 aprelədək cümhuriyyət ordusunun hərbi naziri vəzifəsini yerinə yetirmişdir.

Hərbiyyə məktəbinin 1920-ci il məzunlarından olan Əjdər Qurtulanın xatirələrində aprelin 28-i, işğalın birinci günü hərbçilərin, Hərbi Nazirliyin rəhbərliyinin, o cümlədən S.Mehmandarovun hansı əhval-ruhiyyədə olmaları barədə maraqlı qeydlər diqqət çəkir. Hərbi nazir S.Mehmandarovla görüşmək və ondan gələcək fəaliyyət barədə öyrənmək üçün məktəbin rəisi general-mayor K.D.Çxeidzedən tapşırıq alan Ə.Qurtulan xatirələrində yazırdı: "General Çxeidze tərəfindən gəlmiş olduğumuzu söyləyərkən möhtərəm general Səməd paşa Mehmandarlı bizim kim olduğumuzu sordu. Hər ikimizin yeni məzun-mulazim olduğumuzu, ad və soyadlarımızı ərz etdikdən sonra "Konstantin Davıdoviçə mənim salamımı və hərbiyyə naziri qaldığım müddətdə Azərbaycan milli ordusunda heç bir dəyişiklik olmayacaqdır söyləyin".

Uzun xidmət yolu keçən təcrübəli general çox gözəl bilirdi ki, gec-tez işğalçı bolşevik rejminin tələblərinə tabe olmalıdır. Bu səbəbdən də aprelin 28-də o, raport yazaraq, hərbi nazir vəzifəsindən istefa verməli oldu. 1920-ci ilin 28 aprelində S.Mehmandarov 2 əmr imzaladı. 237 saylı əmrində o yazırdı:

"Azərbaycan parlamanının qərarı ilə Sovet hakimiyyəti tanınmışdır. Bunu elan etməklə əmr edirəm:

1. Bütün hissələrdə, qərargahlarda, idarələrdə, təşkilat və müəssisələrdə işlər yeni hakimiyyətə qədərki kimi davam etdirilməlidir.

2. Hərbi Nazirliyin sərəncamında olan yüz milyonlarla qiymətində əmlakın, ərzaq ehtiyatının, pulun, silahın, sursatın israfına, yanlış və qanunsuz məsrəfinə görə təkcə buna yol verənlər deyil, həm də Hərbi Nazirliyin hissələrində, idarələrində, təşkilat və müəssisələrində qanun-qaydaya və təsərrüfat fəaliyyətinin düzgün aparılmasına cavabdeh olanlar məsuliyyət daşıyırlar".

238 saylı əmri isə S.Mehmandarovun hərbi nazir olaraq imzaladığı sonuncu əmr idi. Bu əmrin məzmunu ilə tanış olduqda görürük ki, general yaratdığı ordunu, zabit və əsgərləri necə böyük məhəbbətlə sevib, onların qayğısına qalıb. Sanki o, sonuncu əmrini ordunun şəxsi heyətiylə halallaşması üçün imzalamışdı:

"Bu gün mən öz vəzifəmi Sovet hakimiyyəti tərəfindən yenicə təyin edilmiş hərbi və dəniz komissarı Çingiz İldırıma təhvil verdim. Bunu elan edib salamatlaşan zaman mən bütün əziz xidmət yoldaşlarıma sədaqətli və cəsur xidmətlərinə görə öz səmimi minnətdarlığımı bildirirəm. Şübhə etmirəm ki, onlar yeni hakimiyyət dövründə də hamımız üçün əziz olan Azərbaycan naminə vicdan və sədaqətlə xidmət edəcəklər. Salamat qalın, böyükdən tutmuş kiçik əsgərə qədər sizin hamınıza ürəkdən, bütün səmimiyyətimlə həm işdə, həm də ailə həyatında hər cürə əmin-amanlıq, müvəffəqiyyət və xoşbəxtlik arzu edirəm. Amin Allah!"

Aprel işğalından sonra hərbi nazir vəzifəsindən istefa verən S.Mehmandarov ömrünün müdrik çağlarını doğma Vətəni Azərbaycanda yaşamağı qərarlaşdırır. Lakin mövcud tarixi şərait elə istiqamətə yönəlir ki, düşündüklərinin tam əksinə hərəkət etməyə məcbur edilir. Bolşeviklər onu Gəncədə baş verən hərbiyönümlü antisovet üsyanının təşkilində təqsirləndirərək, 1920-ci il iyunun 4-də general Əlağa Şıxlinski ilə birlikdə həbs edirlər. Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun hər iki generalın həbsdən azad olunması barədə bolşevik rəhbəri V.İ.Leninə ünvanladığı məktubu onları qırmızı terrordan xilas edir.

Aparılan mükəmməl araşdırmalardan aydın olur ki, yeni qurulan bolşevik hökumətinin rəhbərləri güclü ordu formalaşdırmaq üçün təcrübəli hərbçilərə ehtiyacın yarandığını hiss edib tam artilleriya generallarını yenidən işə dəvət edirlər. Azərbaycanın hərbi və dəniz komissarının xüsusi tapşırıqlar üzrə köməkçisi təyin olunan S.Mehmandarov qısa vaxtda inam, etibar qazanır.

Azərbaycan Xalq Komissarları Sovetinin 1922-ci il oktyabrın 18-də keçirilən iclasında tam artilleriya generalları S.Mehmandarova, Ə.Şıxlinskiyə və digər zabitlərə hər ay əmək haqqından əlavə 50 qızıl manat verilməsi qərara alınır. Onlar üçün bu əlavə vəsait həm hərbi xidmətlərinə görə ömürlük ayrılır, həm də həyat şəraitlərinin yaxşılaşdırılması üçün nəzərdə tutulurdu.

Xalqımızın dünya şöhrətli sərkərdə oğlu S.Mehmandarov ömrünün ixtiyar çağında da yorulmaq bilmədən çalışır, bilik və təcrübəsini gənclərə böyük həvəslə öyrədirdi. Xalqını, millətini, Vətənini ürəkdən sevən, bütün ömrünü hərbçi peşəsinə bağlayan general 1924-cü ildə Azərbaycan Birləşmiş Komandirlər Məktəbində (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) müəllim kimi fəaliyyətə başlayır. Keşməkeşli xidmət yollarında qürurla addımlayan görkəmli sərkərdə inanırdı ki, dərs dediyi hər bir azərbaycanlı zabit xalqımızın hərbi ənənələrini uğurla davam etdirəcək. Azərbaycan Birləşmiş Komandirlər Məktəbinin 1926-cı il buraxılışı mərasimində o, çıxış edərkən hərb tarixi ilə bağlı fikirlərini də təsadüfi səsləndirməmişdi: "Hərb tarixinin öyrənilməsi əqli dünyagörüşünü genişləndirir, tənqidi mühakiməni, diribaşlıq və zirəkliyi inkişaf etdirir... Mən belə hesab edirəm ki, hərb tarixi hər bir hərbçi adam üçün stolüstü kitaba çevrilməlidir. Onu öyrənməklə siz, heç şübhəsiz ki, özünüzü həsr etdiyiniz yolda uğurlar qazanacaqsınız".

1929-cu ildə S.Mehmandarov səhhəti ilə əlaqədar olaraq təqaüdə çıxır. 46 il çar, 1 il yarım cümhuriyyət, 10 ilə yaxın Sovet ordusunda xidmət edən və hərbi andına sadiq qalan, şərəfli döyüş yolu keçən tam artilleriya generalının təltifləri zənginliyi ilə seçilir. Brilyantla bəzədilmiş qızıl silah, üçüncü, dördüncü dərəcəli "Georgi", birinci, ikinci və üçüncü dərəcəli "Stanislav", birinci, ikinci və üçüncü dərəcəli "Anna", "Ağ qartal", "Aleksandr Nevski", sərkərdələrə məxsus "İgidliyə görə" (qızıl qılıncla birgə) ordenləri bu təltiflər sırasında yer alıb. Tarixin ən sərt, amansız sınaqlarına polad qətiyyəti və zabit dözümlülüyü ilə sinə gərən yenilməz sərkərdə 1931-ci ilin fevralında ömrünün 75 yaşında dünyasını dəyişir. O Çəmbərəkənd qəbiristanlığının yuxarı hissəsində dəfn edilir. Onun adı xalqımızın yaddaşında əbədi qalıb və nəsildən-nəslə keçərək yaşayacaq.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

Fiziki hazırlıq

# Əsgərlər məşğələdə fəallıq göstərirlər

***Səhər hərbi hissənin ərazisinə daxil olanda elə ilk baxışdan ətrafdakı səliqə-sahman diqqətimi cəlb etdi. Hər yanda təmizlik və abadlıq işləri göz oxşayır, könül açırdı. Qəlbimdə xoş hisslər oyanırdı. Polkovnik-leytenant İkram Səfərovla qərargahın qarşısında görüşüb söhbət etdik. Zabit şəxsi heyətin döyüş hazırlığından danışaraq bildirdi ki, təsdiq olunmuş plana uyğun olaraq zabit və əsgərlər bu yaxınlarda irimiqyaslı təlimlərdə iştirak etdi. Təlim zamanı qarşımıza çox mühüm vəzifələr qoyulmuşdu. Hərbi qulluqçularımız tapşırıqları dəqiq və vaxtında yerinə yetirdilər.***



Hərbi hissədə şəxsi heyətin fiziki hazırlığına böyük önəm verilir. Bunu idman şəhərciyindəki canlanmadan hiss etmək olurdu. Əsgərlər komandirin nəzarəti altında məşq edirdilər. Onlar yorulmaq bilmədən fiziki hazırlıqlarını artırırdılar. Şəxsi heyəti belə həvəsli, hazırlıqlı gördükcə sevinirəm, ürəyim dağa dönür. Çünki fiziki cəhətdən hazırlığı yüksək olan əsgər döyüşdə qələbə qazanaraq həm özünün, həm də komandirinin başını uca edər.

Şəxsi heyətə fiziki hazırlıq məşğələsi keçən baş leytenant Cavad Məmmədov söhbətində qeyd edir ki, əsgərlər həm fiziki hazırlıq məşğələlərində, həm də təlimlərdə fəal iştirak edirlər. Onlar asudə vaxtlarında da idman şəhərciyinə gələrək məşq edirlər. Komandir kimi çalışıram ki, tabeliyimdə olan şəxsi heyətin fiziki hazırlığı müasir tələblərə cavab versin. Məqsədimə çatmaq üçün lazımi vərdişləri əsgərlərə həvəslə aşılayıram.

Baş leytenant söhbətinə davam edərək həm fiziki hazırlıq məşğələsində, həm də xidmətin başqa sahələrində fərqlənən əsgərlərdən Natiq Məmmədzadə, Orxan Rəşidi, Həbib Səfərov, Elşən Kazımov, Tural Hüseynov, Bəhram Quluyev, Ülvi Əliyev, Tehran Əhmədov, Samir Zeynalabdiyev və başqalarının adlarını çəkdi. Bildirdi ki, bu əsgərlər həmişə əmr və tapşırıqların öhdəsindən bacarıqla gəlir, xidməti vəzifələrini layiqincə yerinə yetirməyə can atırlar.

- Dərslərdə fəal iştirak edərək daim təcrübəmizi artırırıq, - deyir əsgər Natiq Məmmədzadə. - Fiziki cəhətdən də hazırlıqlı olanda özümüzü daha inamlı, cəsarətli hiss edirik. Bu güclə, bu hazırlıqla düşmən qarşımızda çətin ki, duruş gətirsin. Uğurlara gedən yol fiziki hazırlıqdan da keçir. Dərslərdə qazandığımız təcrübə hər addımda bizi qələbəyə yaxınlaşdırır.

Söhbətimiz başa çatandan sonra əsgərlərin fiziki hazırlıq məşğələsini diqqətlə izlədik. Şəxsi heyət yorulmaq bilmədən idman qurğularında müxtəlif tapşırıqları yerinə yetirirdi. Əsgərlərin cəld və çevik hərəkətlərindən zövq almamaq mümkün deyildi. Bir daha əmin olduq ki, bu gün idman şəhərciyində təcrübə və səriştəsini artıran əsgərlər sabah döyüş meydanlarından qələbə sorağı ilə dönəcəklər.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu",**
**foto müəllifindir**



# "Ordumuzun ictimaiyyət arasında nüfuzu yüksəkdir"

***Bu günlərdə Hərb Tarixi Muzeyində "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüşlərdə hərbi hissələrin və Silahlı Qüvvələrin göstərdikləri qəhrəmanlıq nümunələrinin təbliği" mövzusunda tədbir keçirildi.***

Tədbiri Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə açıq elan etdi. Torpaqlarımızın azadlığı və müstəqilliyi uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Resbublikasının Dövlət himni səsləndi.

Qarabağ və Əfqanıstan müharibələrinin iştirakçısı, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə çıxış edərək bildirdi ki, ölkəmiz müstəqillik əldə etdikdən sonra Ermənistanın hərbi təcavüzü ilə üz-üzə qaldı. Əvvəlcədən müharibəyə hazırlaşmış ermənilər mərhələ-mərhələ torpaqlarımızı işğal etməyə başladılar. O vaxtlar torpaqlarımız vahid komandanlığı olmayan könüllü dəstələr tərəfindən qorunurdu. 1991-ci ildən 1993-cü ilin sonuna qədər düşmən həm Qarabağı, həm də bir neçə ətraf rayonumuzu ələ keçirdi. Torpaqlarımızın 20 faizi ermənilər tərəfindən işğal olundu. Bir milyondan çox vətəndaşımız doğma ocaqlarından didərgin düşdü. Ermənilər 900 yaşayış məntəqəsini talan etdilər. İşğalçıların qarşısının alınmasında zabit və əsgərlərimizin göstərdikləri rəşadət və qəhrəmanlıq həm bugünkü, həm də gələcək nəsillər üçün örnək olacaqdır. Gələcəyimizin əsgərləri qəhrəmanlığı, igidliyi Qarabağ müharibəsində iştirak etmiş zabit və əsgərlərdən öyrənəcəklər.

Natiq daha sonra çıxışına davam edərək bildirdi ki, bu gün Azərbaycanın çox güclü və qüdrətli ordusu var. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi altında ordumuz daha da inkişaf edir, gücünü, qüdrətini artırır. Zabit və əsgərlərimiz keçirilən irimiqyaslı təlimlərdə fəal iştirak edərək yüksək təcrübə qazanırlar. Ordumuzun ictimaiyyət arasında nüfuzu və hörməti getdikcə artır. Xalq öz ordusuna inanır və güvənir.

Daha sonra muzeyin nümayəndələri Məleykə Mirzəyeva, Bilqeyis Qafarova, Nuranə Nəcəfova, Selcan Qarayeva, Qarabağ savaşında döyüş yolu keçmiş İntiqam Mirzəyev, ehtiyatda olan zabit Həsən Əmirov, 314 nömrəli tam orta məktəbin hərbi rəhbəri Sahib Hüseynov və başqaları çıxış edərək Qarabağ müharibəsində hərbi qulluqçuların hünər və qəhrəmanlıq nümunələrindən danışdılar.

Məktəbli Ayşən Bayramova vətənpərvərliyi və qəhrəmanlığı tərənnüm edən şeirlər söylədi.

Tədbirin sonunda "Briqada" klipi nümayiş olundu.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**



# "Bayrağımız - milli qürurumuzdur"

## Silahlı Qüvvələrin şəxsi heyəti arasında yazı müsabiqəsi

Silahlı Qüvvələrimizin şəxsi heyətinin mənəvi hazırlığı həmişə diqqət mərkəzindədir. Bu istiqamətdə müxtəlif mövzularda geniş miqyaslı tədbirlər həyata keçirilir ki, bunlar da hərbçilərin istər dünyaduyumunun formalaşmasında, istərsə də mənəvi aləminin zənginləşməsində müstəsna rol oynayır.

Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsinin Silahlı Qüvvələrin şəxsi heyəti arasında "Bayrağımız - milli qürurumuzdur" mövzusunda yazı müsabiqəsi elan etməsi də bunun təzahürüdür. Belə bir müsabiqənin keçirilməsi Silahlı Qüvvələr və qoşun növləri, Əlahiddə Ümumqoşun Ordu, birlik və birləşmələrdə mənəvi-psixoloji hazırlığın daha intensiv təşkilinin təmin edilməsində vasitə olacaqdır.

Müsabiqəyə təqdim edilən yazılara Şəxsi Heyət Baş İdarəsi rəisinin əmri ilə müəyyənləşdirilmiş komissiya tərəfindən baxılacaq, daha əhatəli, məzmunlu, bədii yazılar seçilərək qaliblər müəyyənləşəcək.

Yazı müsabiqəsi noyabr ayının 9-da yekunlaşacaq.

Müsabiqədə fərqlənənlər həm Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsinə uyğun olaraq həvəsləndiriləcək, fərqlənən yazılar "Azərbaycan Ordusu" qəzetində dərc ediləcək, həm də qaliblər Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsi tərəfindən mükafatlandırılacaq:

I yer - 200 manat; II yer - 150 manat; III yer - 100 manat.

**"Azərbaycan Ordusu"**

# İdman

## Çempionlar Liqasında mübarizə aparacaq voleybol klublarımız üz-üzə gəlib



Yeni mövsümə hazırlığı davam etdirən Bakının qadınlardan ibarət "Telekom" və "Lokomotiv" voleybol klubları yoldaşlıq oyunu keçiriblər.

Bakı Olimpiya İdman Kompleksində təşkil olunan oyunda "Lokomotiv" 3:1 hesabı ilə qalib gəlib. Hər iki komandamız Çempionlar Liqası yarışlarında mübarizə aparacaq. "Lokomotiv" "A" qrupunda "Azərreyl" (Azərbaycan), "Alyans Ştutqart" (Almaniya) və "Dinamo Kazan" (Rusiya) komandaları ilə qarşılaşacaq. "Telekom" isə "E" qrupunda mübarizə aparacaq. Bakı təmsilçisinin rəqibləri Almaniyanın "Drezdner", Türkiyənin "Fənərbaxça" və Polşanın "İmpel Vrotslav" klublarıdır.

## Azərbaycan cüdoçusu "Böyük dəbilqə" turnirində gümüş medal qazanıb



Parisdə cüdo üzrə "Böyük dəbilqə" turniri davam edir.

Turnirin birinci günündə Azərbaycanın beş cüdoçusu tatami üzərinə çıxsa da, onlardan yalnız Rüstəm Orucov (73 kq) medal qazana bilib. Cüdoçumuz ukraynalı Sergey Drebotaya, türkiyəli Hasan Vanlıoğluya, Almaniya idmançısı İqor Vandtkeyə və çinli Şua Suna qalib gələrək finala yüksəlib. Qızıl medal uğrunda görüşdə cüdoçumuz yaponiyalı Hiroyika Akimotoya məğlub olub və gümüş medalla kifayətlənib.

Bu yarışda qazanılan uğurlar idmançıların 2016-cı ildə Rio de-Janeyroda keçiriləcək Olimpiya Oyunlarında iştirak etmək üçün reytinq göstəricilərini əhəmiyyətli dərəcədə artırmağa kömək edir. Bu turnirdə qızıl medal alan idmançı 500, ikinci yerin sahibi 300, bürünc mükafatçıların hərəsi 200 xal qazanır.

## Azərbaycan velosipedçisi "Rio-2016"-ya reytinq xalları qazanıb



Azərbaycanın şose velosipedi üzrə qadınlardan ibarət yığma komandasının üzvü Yelena Pavluxina Fransada keçirilən birgünlük "Chrono des Nations" yürüşündə uğurla çıxış edib. "Rio-2016" Yay Olimpiya Oyunlarına lisenziya xalları verən və fərdi ötüşmə sistemi üzrə keçirilən yarışda iştirakçılar 21 kilometr məsafə qət ediblər. Velosipedçimiz bu məsafəni 29 dəqiqə 31 saniyəyə qət edərək yekunda 5-ci yeri tutub və bununla da "Rio-2016"-ya 30 lisenziya xalı qazanıb. Hazırda Yelena Pavluxinanın aktivində ümumilikdə 53 reytinq xalı var.

## Azərbaycan idmançısı böyüklər arasında kempo döyüş növü üzrə Avrasiya çempionu adını qazanıb



Azərbaycan idmançısı Ayşad Əsgərli böyüklər arasında kempo döyüş növü üzrə Avrasiya çempionu olub.

"Şağan" Olimpiya İdman Kompleksində təşkil olunan yarışda Ayşad Əsgərli finalda İran təmsilçisinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

İdmanın bu növü üzrə Azərbaycan çempionu olan A.Əsgərli dünya birinciliyinin gümüş mükafatçısıdır.

A.Əsgərli Bakı Slavyan Universitetinin filologiya fakültəsinin dördüncü kurs tələbəsi, eyni zamanda, rektorun innovasiya və texnologiya üzrə müşaviridir.

**AZƏRTAC-ın**
**materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Bağırzadə Pərvin Asif oğluna verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Əbülfət QASIMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 819
Nüsxə 4710